# Taleyini yaşamayan şair



■ Şahanə Müşfiq

Emil Tahiroğlu... ”Oxu məni” və ”Serial” qəzetlərindəki yazıları ilə tanımışdım onu. Bu ilin may ayında dostlarımdan eşitdim ki, AYB-nin ”Natəvan” klubunda Emil Tahiroğlunun kitabının təqdimat mərasimi keçiriləcək. Tədbirdə müasir Azərbaycan ədəbiyyatının tanınmış imzaları, gənc yazarlarla birgə, ”Oxu məni” qəzetinin əməkdaşları, oxucuları və şairin ailə üzvləri də iştirak edirdi. Mərasimin aparıcısı şairə Fərqanə Mehdiyeva Emil Tahiroğlunun ”Yaxşı ki, mən şair olmadım, ana!” adlı şeiri ilə sözə başladı:

*Nur dolu dünyama qaranlıq çökdü,*
*Dərdim qamətimi, qəddimi bükdü,*
*Şairlik dözülməz, çəkilməz yükdü,*
*Yaxşı ki, mən şair olmadım, ana.*

Düzü, çaşıb qalmışdım. Bu nə idi? Təvazökarlıqmı, həqiqətmi? Axı, biz şair olmadığı üçün şükr edən bir insanın şeirlər kitabının təqdimatına yığılmışdıq. Sonrakı dəqiqələrdə kitabda yer alan bir neçə şeir tədbir iştirakçıları tərəfindən oxunduqca, mən bu insanın sözün əsl mənasında şair olduğunu anladım. Sonra şairin kitabda yer alan eyni adlı şeirini oxudum və bu insanın düşüncə tərzinə, duyğularının zənginliyinə və poetik ifadə tərzinə bir daha heyran oldum:

*Sığal çəkə-çəkə ağlatdı məni,*
*Əzab verə-verə anlatdı məni,*
*”Döz, düzələr”,- deyib aldatdı məni,*
*Bu, mənim taleyim deyil, deyəsən.*

Sonralar Emil bəyin ilk kitabını səbrlə, tələsmədən günlərlə, həftələrlə oxudum. Hər şeirin yox, hər beytin, hər misranın üzərində düşündüm. Kitab müəllifin oxucuya ünvanladığı ”Ön söz əvəzi” adlı məktubu ilə başlayır. Cəmi bir vərəqlik bu məktub elə səmimi, elə sadə hisslərlə qələmə alınıb ki, sanki bu bir neçə cümlə ilə şair bir kitabda topladığı bütün şeirləri haqqında qısaca təsəvvür yaratmağa çalışır. Bu məktubunda şair özü də kitab çıxartmaqda nə qədər gecikdiyinin və oxucuları intizarda saxladığının fərqinə varır. Bu kiçik məktubda müəllif özü kitabın adına aydınlıq gətirir: ”...Həmişə nədənsə mənə elə gəlir ki, taleyim kiminsə taleyi ilə dəyişik düşüb. Mənə bu cür tale yazılmamalıydı. Hətta hərdən öz-özümə pıçıltı ilə: ”Yəni, Allah bu boyda səhv edə bilərmi?” - deyə soruşuram. Və... Və elə o andaca: ”Yox, elə deyil. Mən bu şeirləri yazım deyə Allah mənə bu tale cığırını cızıb” - özüm də cavab verir, qismətimlə razılaşmalı oluram. Şeirdən söz düşmüşkən, məhz bu düşüncələr mənə ”Bu, mənim taleyim deyil...” adlı bir şeir yazdırdı”:

*Nolar bircə dəfə gileyimə bax,*
*Dərdi yığın - yığın ürəyimə bax,*
*Allah, bir mənə bax, taleyimə bax,*
*Bu, mənim taleyim deyil, deyəsən...*

Heca vəznli şeirlərin yer aldığı kitabın ilk bölümü ”Hər şey sevgidən başlayır...” adlanır. Ümumiyyətlə, şairin yaradıcılığının böyük hissəsini sevgi, məhəbbət mövzulu şeirlər əhatə edir. Burda söhbət yalnız qarşı cinsə olan məhəbbətdən getmir. Onun ürəyində dünyaya, insanlığa qarşı sonsuz məhəbbət yer alıb.

Başqa bir şeirində onu unutmağa qərar vermiş sevgilisinə üz tutan aşiq sanki bunu bacarmayacağına əmindir:

*Sevən insan xatırlayıb dünəni,*
*Unudammaz öz əhdindən dönəni.*
*Ömrüm boyu unutmasam mən səni,*
*Söylə, məni necə unudacaqsan?*

Maraqlı burasındadır ki, müəllif başqa bir şeirində sanki özü öz dediyini inkar edir. Sevə-sevə də unutmağın mümkünlüyünü anlayır:

*Nə qədər eşqinlə vursa da ürək,*
*Həsrəti özümə dost tutam gərək.*
*Lap elə sən məni unutduğuntək*
*Səni sevə-sevə unudacağam.*

”Gözəl qarşılayır hər dərdi dərdim” şeirində isə müəllif dərdindən ağızdolusu danışır, dərdinin rəngarəng olduğundan və gələn hər dərdi necə əziz saxladığından bəhs edir:

*Dərd məni tapacaq olsam da Çində,*
*İtmişəm, batmışam dərdin içində.*
*Min çiçək içindən, min gül içindən*
*Hamı çiçək dərdi, mən dərdi dərdim.*



Kitabın ”Həqiqətin sərt üzü” adlanan ikinci bölümü ”Bir körpənin beşiyidir hər qucaq” şeiri ilə başlayır. Şeirdən əlavə, onun yazılma tarixçəsi daha çox təsir etmişdi mənə. Uşaq evlərində bir doğma sığalına, ana qucağına həsrət körpələr varkən şəhərin küçələrində qucağında it dolaşan anaların varlığı şairi dilləndirir və bu hisslər ağ kağız üzərinə köçürülür:

*Bir körpənin beşiyidir hər qucaq,*
*Qucağında it gəzdirir ”ana”lar.*
*Aman Allah, sonu necə olacaq?*
*Qucağında it gəzdirir ”ana”lar.*

Bir azərbaycanlı övladı kimi Emil Tahiroğlunu da narahat edən ən böyük problem Qarabağ dərdidir. Şair bir çox şeirində bu məsələyə toxunur. Şairin Xocalı faciəsinə həsr etdiyi ”Xocalıda o gecə” adlı şeiri isə öz orjinal quruluşu ilə daha çox fərqlənir.

*Arzular güllələndi, ümidlər güllələndi,*
*Bu millətin başına od yağdı, kül ələndi,*
*Yer bir tərəfə qalsın, göy üzü silkələndi,*
*Xocalıda o gecə.*

Şair bədii təsvir və ifadə vasitələrindən də ustalıqla istifadə edir. Bunlar da şeirdəki poetik gücü daha da artırmağa və şeirin daha oxunaqlı olmasına zəmin yaradır. Bir şeirində yenə metaforanın uğurlu istifadəsi ilə qarşılaşırıq:

*Ayırmaq olmayır yaxşını pisdən,*
*Həmişə haqq sözü söylədiyimdən,*
*Görürəm bu dünya inciyib məndən,*
*Gedim o dünyada yaşayım bir az.*

Emil Tahiroğlunun şeirlərində diqqətimi çəkən bir digər məqam isə şairin bəzi şeirlərinin son bəndində adını işlətməsidir. Məsələn:

*Hələ dodaqlarım adını səslər,*
*Belə qaçma məndən, barı nəfəs dər,*
*Eşqin nə olduğun bilməyən kəslər:*
*”Emil dəli olub”,- deyərlər bir gün.*

Kitabın sonunda şairin iki və ya dörd misralıq qısa deyimləri yer alır. Hansı ki, bu qısa deyimlərdə müəllifin hər hansı məsələ haqqında fəlsəfi düşüncəsi yer alır:

*Dünyaya əliboş gəldiyimizdən,*
*Dünya da üzünü çevirib bizdən.*

Sonda bir daha Emil Tahiroğlunu ”Bu, mənim taleyim deyil, deyəsən...” adlı ilk kitabı münasibəti ilə təbrik edir, ona yeni yaradıcılıq uğurları arzu edirəm.